# Regional təhlükəsizlik Azərbaycan multilateralizmi kontekstində

**IV MƏQALƏ**

## Abenin "təhlükəsizlik incisi"



Azərbaycanın multilaterallıq formatlarının hansı şəraitdə ciddi sınaqlardan keçdiyini aydın dərk etmək üçün Asiya multilaterallığı ilə əlaqəli bir müqayisəyə də ehtiyac vardır. Məsələ ondan ibarətdir ki, rəsmi Bakının 1993-cü ildən həyata keçirməyə başladığı möhtəşəm multilateral modelin Azərbaycan fəlsəfi və politoloji fikrində geniş təhlilinə rast gəlmirik. Ancaq bu problemi fəlsəfi ilə yanaşı, siyasi-nəzəri olaraq dərindən anlamasaq, Azərbaycan Respublikasının müstəqil dövlət kimi dünya geosiyasətində yeri və rolunu adekvat dərk edə bilmərik. Söhbət ondan getmir ki, biz hansısa nəzəri kəşf etməliyik – tam əksinə, Vətən və müstəqil dövlət dediyimiz məhfumların adekvat obrazını həm yaratmalı, həm də onu təşviq etməliyik. Bu baxımdan politologiyada Yaponiyanın keçmiş baş naziri S.Abenin adı ilə bağlı olan "Abenin "təhlükəsizlik incisi" modeli fonunda Cənubi Qafqaz multilateralizminə bir daha baxmağa ehtiyac vardır.

S.Abenin "təhlükəsizlik incisi" Asiya–Sakit okean regionu üçün nəzərdə tutulmuş və birbaşa Çinə qarşı olan bir neçə dövlətin əməkdaşlıq modelini ifadə edir. Hər şeydən öncə, söhbət QUAD və AUKUS-dan gedir. QUAD təhlükəsizlik üzrə dördtərəfli dialoq formatıdır. 2007-ci ildə yaradılmışdır. Üzvləri ABŞ, Avstraliya, Hindistan və Yaponiyadır. Hind–Sakit okean regionunda təhlükəsizliklə bağlı formalaşdırılmışdır. Onlar "təhlükəsizlik" deyəndə Çinin aparıcı olmadığı sabitliyin və inkişafın təminini nəzərdə tuturlar. Lakin QUAD dərhal fəal ola bilmədi. Yalnız XXI əsrin ikinci onilliyində fəallaşdırıldı və QUAD 2.0 formatı meydana gəldi. Bu, 2017-ci ildə D.Trampın Asiya turnesi zamanı baş verdi. QUAD 2.0 QUAD-ın genişlənməsini nəzərdə tutur. Ona yeni üzvlərin qəbulu arzu edilir. Yəni faktiki olaraq Vaşinqtonun liderliyi ilə Çin ətrafında güclü bir koalisiya-əməkdaşlıq qrupu yaradılır. Bu, həm də Çinin yaratdığı regional əməkdaşlıq formatlarına qarşıdır.

Faktiki olaraq, Asiya–Sakit okeanda iki alternativ təhlükəsizlik və əməkdaşlıq formatları arasında güzəştsiz mübarizə gedir. Hələlik qalib yoxdur, yalnız gərgin mübarizə vardır. Ona görə də həmin regionun sabit təhlükəsizliyi və inkişaf kursundan danışmaq tezdir. Bu baxımdan dünyanın iki güclü dövlətinin rəhbərliyi ilə formalaşdırılan və başqa qlobal gücləri də əhatə edən multilaterallığın uğurlu olduğu haqqında fikir söyləmək çətindir. Bu tezis 2019-2020-ci illərdə QUAD-ı yaradanların görüşlərindən sonra da aydın olmamışdır.

Buna görədir ki, 2021-ci ildə yeni bir əməkdaşlıq formatı – AUKUS meydana gəlmişdir. Bu təşkilatda Avstraliya, Böyük Britaniya və ABŞ birləşmişlər. Məqsədləri QUAD-dan fərqli deyildir. Güclü antiçin koalisiyası yaradaraq, regionun digər dövlətlərini də (məsələn, Vyetnamı) ora üzv edərək üstünlüyü ələ almağa çalışırlar.

Bunlardan başqa, digər formatlar və mövcud olan formatların bu və ya digər dərəcədə kombinasiyaları kimi proseslər müşahidə edilir. Formal olaraq onların hər biri multilateral modelə uyğundur, lakin real fəaliyyət və funksional səmərəlilik aspektində kifayət qədər effektli deyil. Nəzərə alsaq ki, Uzaq Şərq üçün ASEAN, ATEC, ŞƏT (Şanxay Əməkdaşlıq Təşkilatı) kimi təşkilatlar və Rusiya kimi güclər də əhəmiyyətlidir, onda ümumi mənzərə daha aydın olar. Yəni, hətta, dünyanın ən güclü dövlətlərinin iştirak etdiyi və Abenin "təhlükəsizlik incisi" adlandırılan modellər belə həqiqi mənada multilateral nümunə ola bilmirlər. Onlar "təhlükəsizliyin incisi" və "brilyantı" deyil, xeyli mənada gərginliyi artıra bilən və qeyri-sağlam rəqabəti, bloklaşmanı, hərbi düşərgələrə parçalanmanı körükləyən formatlar təsiri bağışlayırlar.

Ən təhlükəli cəhətlərindən biri ondan ibarətdir ki, bu formatların təşəbbüskarları həmin bloklaşma və qarşıdurma fəlsəfəsini qonşu regionlara – Mərkəzi Asiyaya, Cənubi Asiyaya və Qafqaza da yaymağı planlayırlar. Mərkəzi Asiya və Qafqazda ABŞ və Çinin liderlik etdikləri təhlükəsizlik və əməkdaşlıq formatlarının kəskin rəqabəti bu əsasda özünü göstərir. Deməli, ayrıca Cənubi Qafqaz üçün multilateral model məsələsi strateji aspektdə belə olduqca aktual məsələyə çevrilmişdir.

## Multilateralliqların rəqabət meydanı

Beləliklə, QUAD, QUAD 2.0, QUAD+AUKUS və digər Asiya multilaterallıq modelləri başqa regionlar üçün yaradılan analoji nümunələrlə birlikdə dünya üzrə faktiki olaraq "multilaterallıq şəbəkəsi"nin yarandığı anlamını verirlər. Politoloji terminlə deyə bilərik ki, indi multilaterallığın əsas təzahür forması regional təşkilatlar, yəni dövlətlər qrupu vasitəsilə praktiki gerçəkləşmə mexanizminə sahib olması ilə fərqlənir. Bu da Azərbaycan kimi dövlətləri güclü və mürəkkəb rəqabətlə üz-üzə qoyur. Çünki Cənubi Qafqazın təhlükəsizlik məsuliyyətini daşıyan lider dövlət və kənar modelləri arxa plana atmalı olan güclü geosiyasi oyunçu kimi Bakı digərlərindən fərqlənməlidir. Bu çətin regional lider rolunu ədalətli multilateral nümunə çərçivəsində həyata keçirmək çox böyük liderlik keyfiyyətləri tələb edir. Azərbaycanın multilateral nümunəsinin və onun lideri İlham Əliyevin siyasi-diplomatik məharəti məhz bu prizmada bütün üstünlükləri ilə özünü göstərir!

Yeni multilaterallığa iddialı olan təşəbbüslər yalnız Uzaq Şərqdən gəlmir. Doğrudur, Avropanın Böyük Britaniya və Fransa kimi böyük dövlətləri Amerikanın Asiya planlarına daxil olurlar. Lakin bununla yanaşı, sırf Qərbdən qaynaqlanan modellər də təklif edilir. Bu, əsasən Aİnin Yeni Qonşuluq Siyasəti çərçivəsində müxtəlif formatlarda özünü göstərir. Onların sırasında, məsələn, "Üç dəniz sistemi"ni, Şərq Tərəfdaşlığı Proqramını və Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilatı (GUAM) göstərə bilərik. Onlarla yanaşı, müxtəlif enerji əməkdaşlıq formatları da mövcuddur.

Nəzəri olaraq, bu, multilaterallığın regional təşkilatlar müstəvisində reallaşması mərhələsinə transformasiya deməkdir. Diqqət etsək, görərik ki, həmin dəyişmə əsas olaraq 2004-2007-ci illərdən başlayaraq, XXI əsrin ikinci onilliyində daha da intensivləşmiş və son bir neçə ildə yeni gərginlik səviyyəsinə yüksəlmişdir. İndi bu ümumi dinamikanın daxilində Azərbaycanın multilaterallıqda əldə etdiyi konkret uğurlardan danışmaq olar.

## Cənubi Qafqaza iç və kənar baxış

İndi yuxarıda vurğulanan məqamları Azərbaycan multilateral numunəsi fonunda ümumiləşdirə bilərik.

Birincisi, Cənubi Qafqaz 2000-ci ildən bu yana əvvəlki mərhələdə olduğu kimi güclü geosiyasi təsirlər məkanı olmuşdur.

İkincisi, həm Asiya, həm də Avropa istiqamətindən multilateral xarakterli (yəni çoxtərəfli beynəlxalq əlaqələr yaratmaq iddiası ilə) formatlar təklif edilmişdir.

Üçüncüsü, onların heç birində Cənubi Qafqaz dövlətlərinin milli maraqları əsas yerdə sayılmamışdır. Əksinə, kənardan olan regional multilateral təşkilatları yaradanların maraqlarına daha çox xidmət etmək şərti qoyulmuşdur. Bu zaman həmin şərtlər abstrakt, əməkdaşlıq, demokratiya, təhlükəsizlik, liberallıq, azad ticarət, insan haqları və digər gəlişigözəl terminlərlə ibarələnmişdir.

Dördüncüsü, multilaterallığı təşkil edən kənar qüvvələrin hər biri gerçəkdən Cənubi Qafqaz dövlətlərindən güclü və nüfuzludurlar. Üstəlik, bütün Cənubi Qafqaz dövlətləri bir yerdə belə onlar qədər imkana malik deyil. Yəni öncədən qeyri-bərabər rəqabət meydanı yaranmışdır.

Məsələnin başqa mühüm tərəfi Cənubi Qafqazın region kimi vahid geosiyasi və siyasi-iqtisadi mövqeyə malik olmaması ilə bağlıdır. Bunun başlıca səbəbkarı Ermənistandır. O, qonşu dövlətlərə qarşı təcavüzkar xislətindən əl çəkmir və özünün absurd tarixi uydurmalarını gerçəklik kimi qəbul etdirmək xəstəliyinə düçar olmuşdur. Ancaq real vəziyyət Ermənistana heç bir şans buraxmır. Erməni siyasi şüuru isə gerçəkliyi qəbul etmək istəmir. Bu səbəbdən, Cənubi Qafqaz kənardan olan güclü təsirlərə qarşı hardasa, müdafiəsizdir – geosiyasi təxribatlara region daxilindən dəstək verənlər mövcuddurlar!

Bütün bunlara görə, regionda geosiyasi mənzərəni multilateral kontekstdə kökündən dəyişmək üçün öncə bir sıra regional problemi həll etmək çox vacib idi. Bunu Azərbaycan edə bildi. Bakı onu üç istiqamətin sintezində reallaşdırmağı bacardı.

Birincisi, Azərbaycan konkret enerji layihələri ilə multilaterallığı "qazan-qazan" prinsipi üzrə enerji proyektlərinə (neft və qaz bura daxildir) transformasiya etdi. Bu proses enerji strategiyasının I və II mərhələlərinin yekunu oldu. Onun faktiki və feili təsdiqi XXI əsrin əvvəllərindən neftlə yanaşı, bir neçə qaz layihəsinin həyata keçirilməsində özünü tapmışdır. Bakı–Ceyhan və Bakı–Supsa neft nəqletmə marşrutu ilə yanaşı, Cənub Qaz Dəhlizi, TAP, TANAP və digər nümunələr meydana gəldi. Bunlara Azərbaycan Prezidenti bir neçə il gərgin siyasi-diplomatik fəaliyyət və manevrləri bacarıqla aradan qaldırmaqla nail olmuşdur.

İkincisi, Azərbaycan müstəqil surətdə və sırf milli maraqları çərçivəsində regional təşkilatlanma xətti yeritmişdir. Həmin kurs Cənubi Qafqazda "Qafqaz evi" modeli ilə yanaşı, üç əlavə istiqaməti özündə ehtiva etmişdir.

Onlardan biri XXI əsrin əvvəllərində GUAM-ın aktuallaşdırılmasından ibarət idi. Bu ideya bir neçə il gündəmdə aktiv surətdə qaldı, lakin müəyyən səbəblərdən sonra praktiki effektini itirdi. Bizcə, bunun başlıca səbəbi ideyanın kənardan verilməsi və məsələnin çox ümumi qoyulması ilə bağlı idi. Həm də GUAM-da vahid mövqedən "demokratiya və iqtisadi inkişaf" mexanizmlərinin izahı mövcud deyildir.

Digər istiqamət türk dövlətlərinin regional təşkilatlanması ilə bağlıdır. Bu prosesin əsasını Ulu öndər qoymuşdu. 2009-cu il Naxçıvan Bəyannaməsi ilə özünün yeni səviyyəsinə yüksəldi. XXI əsrin üçüncü onilliyində isə artıq güclü və eyniməqsədli regional bir təşkilat kimi fəaliyyət göstərir. Türk Dövlətləri Təşkilatı (TDT) faktiki olaraq Azərbaycan Respublikası dövlətinin dövlət quruculuğu kursunun "Naxçıvan sinerjisi"nin "Ümumazərbaycan sinerjisi"nə və ondan da "Ümumtürk sinerji"sinə birbaşa ruhsal, ideyaca və feili siyasi-diplomatik keçidlərinin sinergetik yekunudur. Bu proses Azərbaycan multilateraliziminin aparıcı xəttini təşkil etməkdədir. Təməlində isə Ulu öndərin "bir millət, iki dövlət" kəlamının yaradıcı və təminedici potensialı durur.

Nəhayət, üçüncü istiqamət Azərbaycanın Cənubi Qafqazda əməkdaşlıq, sülh və təhlükəsizliyin (mərkəzində milli təhlükəsizliyin dayanması şərti ilə) regionun üç böyük dövləti – Rusiya, Türkiyə və İranın iştirakı ilə təmin olunması ilə əlaqəlidir. Buna "3+3" formatı deyirlər. "3+3"-ün hüquqi və siyasi sütunlarını isə Azərbaycan–Türkiyə və Azərbaycan–Rusiya strateji müttəfiqlikləri təşkil edir. İranla konstruktiv və tarixi, mədəni ortaqlıq müstəvisində qarşılıqlı faydalı əməkdaşlıq modeli üzrə münasibətləri inkişaf etdirmək xətti getdikcə daha konkret məzmun alır.

Əslində, Azərbaycan Prezidenti bir neçə ildir ki, Cənubi Qafqaz miqyasında yeni ikitərəfli və üçtərəfli əməkdaşlıq formatları təklif edir və onların hər biri real məzmun alır. Həmin prosesdə İranın da geniş şəkildə iştirakını Azərbaycan hər zaman nəzərdə tutmuşdur (məsələn, Azərbaycan–İran–Rusiya formatı, o cümlədən, Şimal–Cənub nəqliyyat dəhlizi daxilində və s).

Bütün bunların fonunda II Qarabağ savaşının multilaterallıqda həlledici rolu üzərində düşünmək olar.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***